9 iyun 2023-cü il, cümə / № 101 (6445)

# Xalqın nicat günü

15 iyun 1993-cü il müasir tariximizə Milli Qurtuluş günü kimi yazıldı. Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil dövlət kimi tərəqqisinin başlanğıcı oldu. 1993-cü ilin keşməkeşli iyun günlərində Azərbaycan təkcə siyasi, hərbi, iqtisadi sahələrdə tənəzzül deyil, həm də mənəvi böhran içərisində yaşayırdı. Ölkəmizin dünya xəritəsindən silinmək təhlükəsi vardı - ölkədə hakimiyyətsizlik hökm sürürdü. Orduda özbaşınalıq halları artır, separatçılıq meylləri güclənir, sadə vətəndaşlar təqiblərə məruz qalırdı. O vaxtkı iqtidarın səriştəsiz fəalliyyəti ucbatından iyunun 4-də Gəncədə baş verən hadisələr qardaş qırğının baş verməsi həddinə qədər dərinləşmiş və qarşısı alınmaz olmuşdu. Həmin dövrdə cəmiyyət belə qərara gəlmişdi ki, fəlakətin qarşısını Heydər Əliyevdən başqa heç kim ala bilməzdi. Azərbaycan parçalanmaq, öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Xalqın nəzərləri Naxçıvana - Heydər Əliyevə dikilmişdi. Milli dövlətçiliyin dağılmaq təhlükəsi qarşısında qaldığı, ən ağır günlərini yaşadığı bir zamanda Azərbaycan xalqı taleyini böyük oğlu Heydər Əliyevə etibar etdi. Xalqın təkidli tələbini qəbul edən Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtdı. Xalq Heydər Əliyevin bu qayıdışını böyük sevinc və ümidlə qarşıladı.



Xalq seçmində yanılmamışdı. Bu müdrik, təcrübəli insan öz qətiyyəti və dəmir iradəsi sayəsində müstəqilliyimizi qoruyub saxlayaraq, onu əbədi prosesə çevirə bildi. Ümummilli liderimizin geniş dünyagörüşü prinsipiallığı və qətiyyəti sayəsində ölkədə sabitlik bərqərar oldu. Müdrik siyasətçi bütün dünyaya bəyan etdi ki, yolumuz demokratiya yoludur və bu yoldan heç vaxt dönməyəcəyik. Azərbaycanın demokratiya yolunda qısa vaxt ərzində əldə etdiyi nəaliyyətlər dünyanın aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildi. Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və rifahını, həyat tərzini yaxşılaşdırmaq imkanı yaratdı. Bu möhtəşəm tarix doğma Azərbaycanımızın nicat günüdür. Siyasi fəaliyyətə qayıdan Heydər Əliyev zəngin iqtisadi biliyi əsasında Azərbaycanın yeni dövrü üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirdi və bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktik əsaslarla sübut etdi. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması bu günkü sosial-iqtisadi inkişaf fonunda qabarıq görünür. Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq həyata keçirilməsi Ümummili liderimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biridir. Ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu uğurlu neft strategiyası təkcə dövlətin qoyduğu uğurlu iqtisadi maraqlarının realizə olunmasına deyil paralel olaraq dövlət müstəqilliyimizin qorunub saxlanmasına yönəlmiş siyasi xəttin yürüdülməsinə xidmət edir. Məhz bu strategiya nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bilmiş, zaman- zaman qlobal məkanda gedən proseslərin istiqamətverici qüvvəsinə çevrilməyə nail olmuşdur. Ümummilli liderimiz qısa zaman kəsiyində həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi. Qanunsuzluqlara, zorakılığa cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Azərbaycan vətəndaşları təhlükəsiz yaşamaq hüququnu əldə etdi. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizə uğur gətirən bu siyasi xətti inamla davam etdirməklə Böyük Öndərin ideyalarını qətiyyətlə həyata keçirməkdədir. Bu gün hamımız ulu öndərin əziz xatirəsini bir daha minnətdarlıqla yad edir, onun ideyalarını həmişəyaşar olacağına inanırıq.

***Mehrab Abdurahmanov,***
***1992-ci ildən YAP-ın üzvü,***
***Kürdəmir rayonu***